**Samux rayonunda heyva və badam bağlarında aparılan monitorinqlərə dair məlumat (30 sentyabr 2022)**

Agentlik əməkdaşları tərəfindən Samux rayonunda yerləşən heyva və badam bağlarında fitosanitar müşahidələr aparılıb. Monitorinq zamanı Aralıq dənizi meyvə milçəyinin və qəhvəyi məxmər taxtabitinin mövcudluğunu müəyyən etmək üçün yay mövsümü ərzində asılmış feromon tələlərə təkrar baxış keçirilib. Feromon tələlərin yoxlanılması nəticəsində qeyd edilən zərərvericilərin həmin ərazilərdə olmadığı təsdiqlənib.

Monitorinq çərçivəsində bitki mühafizə vasitələrinin istifadəsi, saxlanması və daşınması zamanı qanunvericiliyin tələblərinə, həmçinin təhlükəsizlik qaydalarına əməl olunması barədə sahibkarlarla maarifləndirici söhbətlər aparılıb.